

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 189 (21.599)

8 oktyabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

Sonra Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, səhiyyə naziri Oqtay Şirəliyev və təhsil naziri Mikayıl Cabbarov çıxış ediblər.

Azərbaycan Prezidenti iclasda yekun nitqi söyləyib.

* * *

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, fəaliyyətində uğurlar arzulayıb.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əlaqələrin inkişafından məmnunluq ifadə edib və əməkdaşlığımızın bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduqlarını bildiriblər.



## Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatlarının hesabat-seçki yığıncaqları keçirilir

***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Heydər Əliyev adına tam orta məktəb müəssisədənkənar ərazi ilk təşkilatının hesabat-seçki yığıncağı keçirilib.***

Hesabat-seçki yığıncağında təşkilatın sədri Könül Mirzəyeva məruzə edib. Qeyd olunub ki, bu gün ölkəmiz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi yolla inamla irəliləyir, günü-gündən öz müstəqilliyini möhkəmləndirir, inkişafın yeni zirvələrinə doğru uğurla addımlayır. Bu prosesdə muxtar respublikamız ön sırada gedir. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin bugünkü inkişaf və tərəqqisindən ulu öndər Heydər Əliyevin adını daşıyan tam orta məktəbə də böyük pay düşüb. Görkəmli dövlət xadiminin bugünkü və gələcək nəsillərə ən böyük xidmətlərindən biri olan, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis konfransı keçirilən Yeni Azərbaycan Partiyasının bu məktəbdə də ərazi ilk təşkilatı yaradılıb. Təşkilat öz fəaliyyətini partiyanın Nizamnaməsi və Proqramı, partiyanın yuxarı orqanlarının qərar, göstəriş və təlimatları əsasında qurub. Ölkədə və muxtar respublikada həyata keçirilən siyasi xəttin təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə səy göstərən təşkilat partiya həyatının ən mühüm hissəsi olan siyasi-ideoloji işi daim diqqət mərkəzində saxlayır, partiya üzvlərinin siyasi hazırlıq səviyyəsinin yüksəldilməsini, onlarda dövlətçilik əqidəsinin möhkəmləndirilməsini başlıca vəzifələrdən biri hesab edir.



Qeyd olunub ki, təşkilatın gündəlik fəaliyyətinin əsasını həm də partiya xətti ilə keçirilən tədbirlər təşkil edir. Son bir ildə məktəbdə müxtəlif tarixi günlər, əlamətdar bayramlar yüksək səviyyədə qeyd olunub. Hesabat dövründə partiya üzvləri məktəbdə ümummilli liderimizin müstəqil dövlətçilik irsinin öyrədilməsi məqsədi daşıyan və öz fəaliyyətini uğurla davam etdirən "Heydər Əliyev lektoriyası"nın işində də yaxından iştirak ediblər. Məktəbdə tədrisin yüksək səviyyədə təşkili üçün partiya üzvləri fəallıq göstərir, şagirdlərin Heydər Əliyev ideyalarına sədaqət ruhunda tərbiyə olunmasını özlərinin vətəndaşlıq borcu hesab edirlər.

Vurğulanıb ki, təşkilat öz sıralarına yeni üzvlərin qəbulunu da diqqət mərkəzində saxlayır. Hesabat ilində 2 nəfər Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilərək onların sayı 97 nəfərə çatdırılıb. Üzvlərdən 1 nəfər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü, 4 nəfər "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 4 nəfər "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi"dir. Bundan başqa, 4 nəfər "Tərəqqi" medalı ilə təltif olunub, 1 nəfər isə "İlin ən yaxşı müəllimi" adına layiq görülüb.

Bundan sonra da Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına tam orta məktəb ərazi ilk təşkilatı öz fəaliyyətini partiyanın yuxarı orqanlarının qərar, sərəncam və tapşırıqları, partiya Nizamnaməsi və Proqramı əsasında quracaqdır.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Heydər Əliyev adına tam orta məktəb müəssisədənkənar ərazi ilk təşkilatının birillik fəaliyyəti qənaətbəxş hesab olunub.

Hesabat-seçki yığıncağında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Heydər Əliyev adına tam orta məktəb müəssisədənkənar ərazi ilk təşkilatının yeni idarə heyəti, təşkilatın sədri və müavini, 5 nəfər Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının XI konfransına nümayəndə seçilib.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli yekun vurub.

## Taxılçılığın inkişafı əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm rol oynayır

***Muxtar respublikamızda əhalinin etibarlı ərzaq təminatı iqtisadi siyasətin başlıca istiqamətlərindən biridir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahəsini təşkil edir. Çünki bu sahə əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır.***

Naxçıvanda taxıl məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi cari ilin ötən dövrü ərzində də davam etdirilib. Torpağın şumlanmasından başlayaraq yetişdirilən məhsulun daşınmasına qədər bütün proseslər ciddi şəkildə nizama salınıb. Muxtar respublikaya yeni texnikaların gətirilməsi, meliorasiya və irriqasiya işlərinin görülməsi, məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin aparılması hesabına hər il əvvəlki illə müqayisədə daha çox taxıl məhsulu əldə olunur.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, 2016-cı ildə 31579 hektar sahədən taxıl tədarük olunub. Bunun da 30298 hektarı payızlıq, 1281 hektarı yazlıq taxıldır. Taxıl zəmilərinin 26795 hektarını buğda, 4784 hektarını isə arpa təşkil edib.

Aqrar sektora göstərilən dövlət dəstəyi öz uğurlu nəticələrini verib və bu, kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına səbəb olub. Məhz bu baxımdan taxılın strateji məhsul kimi mühüm əhəmiyyəti nəzərə alınaraq 2000-ci ildən ötən müddət ərzində taxılçılıqla məşğul olan 124 sahibkarlıq subyektinə 794 min 400 manat dövlət maliyyə dəstəyi göstərilib.



Taxılçılığın inkişafı, istehsalın artırılması belə məhsulların saxlanılması üçün anbarların qurulması zərurətini yaradıb. Son illər istehsal edilən taxılın tədarük olunması və saxlanılması üçün "Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarları istifadəyə verilib. Hazırda muxtar respublikada 15 taxıl emalı müəssisəsi mövcuddur.

1 yanvar 2016-cı il tarixə anbarlarda 14.768,68 ton taxıl və 580,0 ton un mövcud olub, 1 yanvar 2016-cı il tarixdən 3 oktyabr 2016-cı il tarixədək 26.788,69 ton taxıl tədarük edilib, 16.343,74 ton taxıl istehsal və ticarət obyektlərinə, 14.146,99 ton taxıl emal müəssisələrinə verilib, 10.086,78 ton un istehsal olunub. 3 oktyabr 2016-cı il tarixə anbarlarda 11.066,64 ton taxıl və 351,85 ton un ehtiyatı mövcuddur.

Taxılçılıqda məhsuldarlığa təsir edən güclü amillərdən biri məhsuldar toxum sortlarının yaradılmasıdır. Bu istiqamətdə də muxtar respublikada mühüm tədbirlər həyata keçirilir, yeni toxumçuluq təsərrüfatları yaradılır, onlar müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunurlar. Hazırda Naxçıvan şəhərində ümumi tutumu 30 min ton olan "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün yeni kompleksin inşası davam etdirilir. Burada toxum, qüvvəli yem və xammal anbarları yaradılacaq. Muxtar respublikamızın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışının da həyata keçirilməsi nəzərdə tutulub.

Görülən işlərin nəticəsidir ki, torpaq mülkiyyətçilərinin istehsal etdikləri taxılın alıcı sarıdan heç bir problemi yoxdur. Muxtar respublikada taxıl istehsalçılarının fəaliyyətinin stimullaşdırılması məqsədilə taxılçılıqla məşğul olan sahibkarlardan buğdanın hər kiloqramı 30 qəpikdən mərkəzləşdirilmiş qaydada satın alınır. Bu, taxılçılığa olan marağın daha da artmasına səbəb olur. Odur ki, hazırda muxtar respublikamızda payızlıq taxıl əkini sürətlə davam etdirilir.

## Səyyari xidmətin fəaliyyəti razılıq doğurur

*Muxtar respublikamızda son illər bərqərar olunmuş və dinamik xarakter almış sosial-iqtisadi inkişafın bəhrələrini hər bir sahədə görmək olar. İnsanlara qayğının böyük ifadəsi kimi dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi də bu inkişafın nəticəsidir.*

Ötən il daha bir qayğının şahidi olduq. Daha dəqiq desək, 2015-ci il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yeni səyyari xidməti təşkil olunub. Səyyari xidmətin operativ fəaliyyəti üçün nazirliyə "Hyundai" markalı avtomobil verilib. Avtomobil xidmət sahələrinə uyğun olaraq, səyyari xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib.

Səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Avtomobildə quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara təqdim olunmasına imkan verib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyindən aldığımız məlumata görə, 2015-ci il ərzində səyyari xidmətə 6320 müraciət edilib. Müraciətlərdən 5123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışı almaq üçün olub. Müraciətlər qanunla müəyyən edilmiş qaydada öz həllini tapıb.

Cari ildə də səyyari xidmət fəaliyyətini davam etdirir. Səyyari xidmət avtomobili sentyabr ayında muxtar respublikanın Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonlarında olub. Bu bölgələrdə 501 nəfər şəxsiyyət, 121 nəfər sürücülük vəsiqələri, 3 nəfər məhkumluq arayışı almaq üçün səyyari xidmətə müraciət edib. Oktyabr ayında isə səyyari xidmət öz fəaliyyətini Culfa rayonunda davam etdirməyə başlayıb. Ləkətağ kəndində şəxsiyyət vəsiqəsi üçün 8, sürücülük vəsiqəsi üçün 2, Ərəfsədə şəxsiyyət vəsiqəsi üçün 7, Xanəgahda şəxsiyyət vəsiqəsi üçün 22, sürücülük vəsiqəsi üçün 2, Göydərədə şəxsiyyət vəsiqəsi üçün 25, sürücülük vəsiqəsi üçün 4 müraciət olub.

Dünən səyyari xidmət Kırna kəndində vətəndaşların müraciətlərinə baxıb.

**Xəbərlər şöbəsi**

*İcmal*

# Muxtar respublikanın siyasi və sosial-iqtisadi həyatı ötən ay bir sıra əhəmiyyətli hadisələrlə yadda qalıb



***Regionda özünün sürətli sosial-iqtisadi inkişafı ilə diqqətləri cəlb edən muxtar respublikamızın iqtisadi-ticarət, mədəniyyət əlaqələrinin əhatə dairəsi durmadan genişlənir. Dünyanın nüfuzlu ölkələrini təmsil edən diplomatların Naxçıvana səfərləri beynəlxalq media qurumlarının da diqqətini qədim diyara yönəldib. Həmin diplomatlar hər fürsətdə muxtar respublikanın geostrateji mövqeyə, güclü iqtisadiyyata, turizm potensialına malik olduğunu vurğulayıblar. Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanın muxtar respublikaya səfəri zamanı da bu məqam xüsusi qeyd olunub.***

Sentyabrın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ilə görüşüb. Ali Məclisin Sədri qonağı salamlayıb, ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini bildirib. Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyi tərəfindən həyata keçirilən tədbirlərdən danışan Ali Məclisin Sədri Robert Sekutanın səfərinin əhəmiyyətini qeyd edib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas və Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovs ilə də görüşüb.

Muxtar respublikamızın qonşu dövlətlərlə də iqtisadi-ticarət, mədəniyyət əlaqələri durmadan inkişaf edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sentyabrın 9-da İran İslam Respublikasının ölkəmizdəki səfiri Möhsün Pakayin, sentyabrın 30-da isə Türkiyə Respublikasının ölkəmizdəki səfiri İsmail Alper Coşkunla görüşüb.

Muxtar respublikamızda yüksəliş və tərəqqini təmin edən regional inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində rayon mərkəzləri ilə yanaşı, ən ucqar kəndlərimiz də gözəlləşir, burada müasir infrastruktur yaradılır, insanların rahat yaşayışı təmin edilir. Sentyabrın 9-da Culfa rayonunun Xanəgah kəndi Naxçıvanın abadlaşan yaşayış məntəqələri sırasına qoşulub. Xüsusilə vurğulamaq istərdim ki, muxtar respublikanın qədim tarixə malik yaşayış məskənlərindən biri olan Xanəgah kəndi vaxtilə milli tariximizin ideoloji müqavimət mərkəzlərindən biri kimi şan-şöhrət qazansa da, sonralar bura baxımsız bir vəziyyətə düşmüşdü. Halbuki bu ərazidə əyilməzlik simvolu kimi tanınan və bərpasından sonra əvvəlki möhtəşəmliyi özünə qaytarılan Əlincəqala yerləşir, eyni zamanda hürufiliyin banilərindən olan Fəzlullah Nəiminin türbəsi də məhz bu kənddədir. Bərpadan sonra Əlincəqalaya gələn yerli və xarici turistlərin sayı sürətlə artıb. Belə bir şəraitdə Xanəgah kəndinin abadlaşdırılması böyük əhəmiyyət kəsb edirdi. Həkim ambulatoriyasının, məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi, Xanəgah Abidə Kompleksinin bərpa olunması, yolların yenidən qurulması, içməli su xəttinin çəkilməsi və digər quruculuq tədbirlərinin həyata keçirilməsi kəndi abadlığa qovuşdurub. Bütün bunlar kəndin turizm potensialını daha da artırıb. Bu həm də insanların rifahının yaxşılaşdırılmasına xidmət edir. Bu gün sakinlər yaradılan şəraitdən səmərəli istifadə edərək təsərrüfatlarını genişləndirirlər. Dövlətimizin kənd adamlarına göstərdiyi qayğının nəticəsidir ki, Xanəgah kəndində heyvandarlıq, arıçılıq, meyvəçilik, əkinçilik əsas məşğuliyyət sahəsinə çevrilib.

Xanəgahda müasirliklə tarixiliyin vəhdətinin yaradılması Naxçıvanda tarixi-mədəni irsimizə göstərilən böyük qayğının növbəti nümunəsidir. Bu gün əcdadlarımızın miras qoyub getdiyi mədəni sərvətlərimiz gələcək nəsillər üçün qorunub saxlanılır. Xanəgah Abidə Kompleksinin bərpası da bu sahədə görülən işlərin davamıdır. Sentyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xanəgah Abidə Kompleksinə gəlib, burada görülən işlərlə tanış olub.

Ölkəmizdə sosial-iqtisadi layihələrin həyata keçirilməsi mülki aviasiyanın inkişafında da mühüm rol oynayıb. Son illərdə mülki aviasiyanın inkişafı istiqamətində görülən tədbirlərdən biri də Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb terminalı"nın tikintisidir. "Qərb terminalı"nda minik və enişlərin təmin olunması üçün müasirtipli teleskopik trap quraşdırılıb. Teleskopik trap vasitəsilə sərnişinlər rahatlıqla təyyarələrə minir, həmçinin təyyarədən terminal binasına keçirlər. Müasir avadanlıqların quraşdırılması sərnişinlərin rahatlığına və uçuşların təhlükəsizliyinə imkan verir. Burada bütün işlər yüksək keyfiyyətlə, böyük zövqlə görülüb. Müasir hava limanı muxtar respublikamızın hava qapısı kimi diyarımızın inkişafını göstərir və gözəlləşən Naxçıvana əlavə yaraşıq verir. Bu işlər Naxçıvanın həm regional miqyasda nəqliyyat-logistika mərkəzi kimi öz rolunu artırmasına, həm də turizmin inkişafına şərait yaradır.

"Qərb terminalı" ilə tanışlıqdan sonra kollektivlə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"Dövlətimiz tərəfindən bu tədbirlər ona görə həyata keçirilir ki, ölkəmizə gələn qonaqların və əhalinin rahatlığı hava limanlarında təmin olunsun. Naxçıvan Muxtar Respublikası üçün hava nəqliyyatında xidmətin hərtərəfli təşkili daha vacibdir. Çünki muxtar respublikaya gələn qonaqlar əsasən hava limanından istifadə edirlər. Hava limanında yaradılan şərait, göstərilən xidmət gələn qonaqlarda Naxçıvan haqqında ilk təəssürat yaradır. Ona görə də işçilər yaradılan şəraitdən səmərəli istifadə etməli, qurulanları qoruyub saxlamalı, xidməti vəzifələrini öyrənməli, nümunəvi xidmət göstərməlidirlər".***

Muxtar respublika iqtisadiyyatında müşahidə olunan davamlı inkişaf nəticəsində mülkiyyət münasibətlərində iştirak edən subyektlərin sayının artması daşınmaz əmlak və torpaq idarəçiliyi sahəsində yeni yanaşmalar tələb edir. Perspektiv inkişafın təmin edilməsi, gələcək nəsillərin məskunlaşması və əhalinin ərzaq tələbatının daha dolğun ödənilməsi torpaqların mühafizə edilməsindən, ondan səmərəli istifadə səviyyəsindən asılıdır. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, torpaqlardan səmərəli istifadə istiqamətində də mühüm tədbirlər görülür. Əkinəyararlı torpaqlardan səmərəli istifadə edilməsi, torpaqlardan istifadəyə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində fəaliyyət ardıcıl xarakter alıb. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən 19 növdə elektron, 5 növdə səyyari xidmət göstərilir. Bütün bunlar vətəndaşların komitəyə gəlmədən öz əmlakları haqqında elektron formada arayış almalarına və digər sənədləşmə işlərini həyata keçirmələrinə imkan verir. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin inzibati binasının istifadəyə verilməsi və burada müasir iş şəraitinin yaradılması işlərin daha da sürətləndirilməsinə şərait yaradıb.

Sentyabrın 14-də Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin inzibati binasının açılışı olub. Bundan başqa, inzibati binanın yerləşdiyi Zərifə Əliyeva küçəsində də yenidənqurma işləri aparılıb, yollar genişləndirilərək asfalt örtük salınıb, işıqlandırma sistemi qurulub.

Naxçıvan Muxtar Respublikasında özəl sektorun inkişaf etdirilməsinə böyük diqqət göstərilib, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına nail olunub. Muxtar respublikada qəbul olunan dövlət proqramlarının uğurla icra edilməsi sahibkarların fəaliyyətinin genişləndirilməsinə müsbət təsir göstərib. Görülən işlərin nəticəsidir ki, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizi ötüb. Hazırda muxtar respublikada rəqabətədavamlı məhsul istehsal edən 441 sənaye müəssisəsi fəaliyyət göstərir. Bu istiqamətdə görülən işlər 2016-cı ildə də davam etdirilib, 16 yeni istehsal və xidmət müəssisəsi yaradılıb. "Fərda" unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsində yeni istehsal sahələrinin yaradılması muxtar respublikada sahibkarlığın inkişafı sahəsində görülən işlərin davamıdır.

Sentyabrın 14-də Naxçıvan şəhərində "Fərda" unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsinin açılışı olub.

İstehsal sahəsinin yaradılmasına muxtar respublikanın Sahibkarlığa Kömək Fondu və müəssisənin daxili imkanları hesabına 785 min manat vəsait sərf olunub. Burada 7 növdə, 197 çeşiddə məhsul istehsal olunur. Müəssisənin muxtar respublikada 7 satış bölməsi vardır.

Bu gün muxtar respublikada təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında 200-dən çox məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, şagirdlərin müasir dövrün tələbləri səviyyəsində təhsil almaları üçün hər cür şərait yaradılıb. Yeniyetmə və gənclərin təhsili üçün yaradılan bu şərait çox böyük strateji məqsədlərə xidmət edir. Çünki təhsil olmadan savadlı, hərtərəfli inkişaf etmiş vətənpərvər gənclik yetişdirmək mümkün deyil. Məhz bu səbəbdən muxtar respublikada təhsilin davamlı inkişafı ilə bağlı tədbirlər görülür, məktəb binaları müasir tədrisin tələblərinə uyğun qurulur. Bu gün muxtar respublika gəncləri ən qabaqcıl informasiya texnologiyalarından, distant təhsil imkanlarından istifadə edərək hərtərəfli təhsil alırlar. Naxçıvan şəhərində, ən ucqar dağ və sərhəd kəndlərində də şagirdlərin istifadəsinə müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik olan kitabxanalar və idman zalları verilib. Bunun nəticəsidir ki, hər il ali məktəblərə qəbulda məzunlarımız yüksək nailiyyətlər qazanırlar.

Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, yeni sənaye və xidmət sahələrinin yaradılması, həmin sahələrdə müasir informasiya texnologiyalarının tətbiqi təhsil sahəsində, xüsusən də dəqiq elmlər sahəsində dərin bilik verilməsinə tələbatı artırır. Təhsil islahatları isə məhz konkret ehtiyaclara uyğunlaşdırıldığı zaman fayda verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması da bu zərurətdən irəli gəlir. Bu gün muxtar respublikada dəqiq fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılmasında liseyin üzərinə mühüm vəzifələr düşür.

Sentyabrın 15-də – Bilik Günündə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey kompleksinin açılışı olub.

Açılış tədbirində çıxış edən Ali Məclisin Sədri deyib: ***"Vətənə, xalqa xidmətin ən yaxşı yolu mükəmməl təhsil almaqdır. Hər bir gənc bilməlidir ki, o, yaxşı təhsil almaqla, peşə öyrənməklə, ilk növbədə, ölkəmizin inkişafına öz töhfəsini vermiş olur. Ölkəmizin gələcəyi bugünkü gəncliyin təhsilə və ya peşə sahələrinə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Çox istərdik ki, hər bir gənc biliklərə dərindən yiyələnsin, vətənpərvər olsun, öz intellektual və yaradıcı potensialını müstəqil Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına həsr etsin".***

Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi ilə bağlı sentyabrın 26-da ölkəmizdə, o cümlədən muxtar respublikamızda keçirilən ümumxalq səsverməsi (referendum) ictimai-siyasi həyatın mühüm bir hadisəsi kimi yaddaşlarda qaldı. Sürətli inkişaf, quruculuq və müasirləşmə siyasətinin həyata keçirildiyi, əhalinin rifahının yüksəldiyi, dayanıqlı sabitliyin mövcud olduğu muxtar respublikamızda siyasi ab-hava səsvermədə seçicilərin böyük fəallıq nümayiş etdirəcəyinə əminlik yaradırdı. Belə də oldu.

Ümumxalq səsverməsində muxtar respublikamızda 292-si açıq və 24-ü qapalı olmaqla, 316 seçki məntəqəsi fəaliyyət göstərib. Muxtar respublikada fəaliyyət göstərən hər bir seçki dairəsinin 5 məntəqəsində olmaqla, ümumilikdə, 35 seçki məntəqəsində müşahidə kameraları ilə internet vasitəsilə seçkilərin gedişini izləmək mümkün olub. Bu, referendumda şəffaflığın təmin edilməsi baxımından mühüm əhəmiyyətə malik idi. Digər seçkilərdə olduğu kimi, 26 sentyabr referendumunda da Naxçıvan Muxtar Respublikasının seçiciləri səsvermə prosesində xüsusi fəallıq nümayiş etdiriblər. Qeydə alınmış 271 min 939 seçicidən 206 min 127 nəfər, yəni seçicilərin 75,8 faizi ümumxalq səsverməsində iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan şəhərindəki 4-15 saylı seçki məntəqəsində səs verib.

Muxtar respublikada aparılan genişmiqyaslı tikinti-quruculuq işlərindən Babək rayonuna da pay düşüb. Bu ilin ötən dövründə rayonun Xəlilli və Yarımca kəndlərində yeni sosial obyektlər istifadəyə verilib. Hacıvar və Badaşqan kəndlərində isə quruculuq işləri davam etdirilir.

Sentyabrın 28-də Məzrə kəndi də rayonun kompleks abadlaşan kəndlərinin sırasına qoşulub. Kənddə bütün sosial problemlər həll edilib, yeni yol, məktəb binası, kənd mərkəzi, feldşer-mama məntəqəsi, xidmət mərkəzi istifadəyə verilib, müasir rabitə sistemi qurulub, sürətli internetdən istifadə imkanları yaradılıb.

Muxtar respublikamızın bütün şəhər və rayonlarında olduğu kimi, Babək rayonunda da mənzillərin içməli su, torpaq sahələrinin isə suvarma su təminatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Kültəpə və Kərimbəyli kəndlərində torpaqları suvarma suyu ilə təmin etmək, su itkisinin və şoranlaşmanın qarşısını almaq məqsədilə Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalından diametri 720 millimetr olan 3060 metr yeni boru xətti çəkilib. Yeni suvarma sisteminin qurulması nəticəsində Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsində suvarma imkanları yaxşılaşdırılıb ki, bunun da 217 hektarı yeni əkin dövriyyəsinə qatılmış torpaqlardır.

Sentyabrın 30-da Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilib. Suvarma tədbirlərinin yaxşılaşdırılması əkin sahələrinin daha da genişləndirilməsinə, bol məhsul istehsalına imkan verəcəkdir. Çünki Kültəpə və Kərimbəyli kəndlərinin sakinləri, əsasən, əkinçiliklə məşğul olurlar. Lakin torpaqların suvarılmasında müəyyən çətinliklər var idi. Həyata keçirilən tədbirlər və istifadəyə verilən yeni suvarma şəbəkəsi hər iki kənddə su problemini həll edib. Bu da əkin sahələrinin genişləndirilməsinə imkan verəcəkdir. Onlar dövlətin yaratdığı şəraitdən səmərəli istifadə edərək torpaqları əkəcək, bol məhsul istehsal edəcəklər.

***İqtisadi, siyasi təlatümlərin yaşandığı müasir dövrdə sürətli sosial-iqtisadi inkişafı qoruyub saxlamaq, onu davam etdirmək çətindir. Ancaq ulu öndər Heydər Əliyev siyasi xəttinə daim sədaqətli olan Naxçıvan Muxtar Respublikası bundan daha çətinini gerçəkləşdirib, 25 illik blokada dövrünün son 20 ili ərzində bir sıra ciddi maneələri dəf edərək sosial-iqtisadi yüksəlişə nail olub. Ən əsası isə qədim diyarımızda inkişaf proseslərinin davamlı xarakter alması təmin edilib.***

**Rauf ƏLİYEV**

# Naxçıvan sənaye şəhəridir

***Müasir dövr Naxçıvanda iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişaf etdirilməsi dövrü kimi xarakterizə olunur. Muxtar respublikada həm yerli xammalla, həm də yüksək texnologiyanın tətbiqi ilə işləyən sənaye müəssisələrinin yaradılması işi bu gün davam etdirilir. Artıq muxtar respublikada yerli və idxal xammal əsasında işləyən çox sayda sənaye müəssisələri fəaliyyət göstərməkdədir. Bu müəssisələrin əksəriyyətinin Naxçıvan şəhərində olması muxtar respublikanın paytaxtının sənaye şəhəri adlandırılmasına əsas verir.***



Naxçıvan şəhərində emal sənayesinin inkişafı ilə bağlı bu yazımız üçün aldığımız məlumatda muxtar respublikanın paytaxtı üzrə emal-istehsal fəaliyyəti ilə məşğul olan müəssisələrin sayının, təxminən, 100-ə yaxın olduğu bildirilir. Əlbəttə, şəhərimizdə bu qədər sayda istehsal müəssisəsinin olması çox yaxşı haldır. Belə ki, bunlar arasında plastmas qablardan avtomobillərə, polietilen torbalardan mebellərə, quş ətindən şirniyyat məhsullarına qədər çox geniş profildə məhsullar istehsal edən müəssisələr vardır. Ümumilikdə, Naxçıvan şəhərində 35-ə yaxın profil üzrə ixtisaslaşmış sənaye müəssisələrinin olduğunu görürük. Bu müəssisələrdə yaradılmış iş yerlərinin sayına gəldikdə isə kifayət qədər ciddi bir rəqəmlə qarşılaşırıq. İki min beş yüzdən çox insanın daimi işlə təmin olunduğu Naxçıvan şəhərindəki istehsal-emal müəssisələri arasında işçilərinin sayının bir neçə nəfərdən tutmuş 275 nəfərədək olan çox geniş sayda sahibkarlıq subyektləri vardır. Mövcud müəssisələrin istehsal gücünə baxdıqda görürük ki, onlardan bəziləri, məsələn, hazırda 260 nəfərdən çox adamın işlə təmin olunduğu "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bu müəssisədə hazırda 4 növ undan 18 çeşiddə çörək, 2 çeşiddə lavaş, 11 çeşiddə süd məhsulları, onlarla çeşiddə şirniyyat və peçenye, əriştə kimi milli mətbəximizdə mühüm yer tutan ərzaq məhsulları istehsal edilir. Burada istehsal olunan məhsulların hamısının xammalı yerli istehsala əsaslandığından keyfiyyət və xammal çatışmazlığı problemi yoxdur.

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətində Azərbaycanın məşhur mineral su brendi "Badamlı" istehsal olunur. İstehsal prosesinin tam avtomatlaşdırıldığı bu müəssisədə hazırda 40-a yaxın işçi çalışmaqdadır. Müəssisədə geniş çeşiddə istehsal olunan qazlı və qazsız "Badamlı" suları təkcə Naxçıvanda deyil, ölkəmizin hər yerində, eləcə də xarici bazarlarda özünə alıcı tapır.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillərə tələbat böyükdür. Zavod yaradıldığı 2008-ci ildən bəri müxtəlif modellərdə 5000-ə yaxın minik avtomobili istehsal edib. Bu zavod muxtar respublikada nümunəvi taksi nəqliyyatının təşkili üçün lazım olan avtomobillərin istehsalı baxımından mühüm rol oynayır. Hazırda zavodun istehsal etdiyi avtomobillərə Naxçıvandan başqa, Bakıda da böyük tələbat vardır. Gələcəkdə isə Gəncə və Sumqayıt şəhərlərində satış və servis mərkəzlərinin yaradılması planlaşdırılır.

Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilən quruculuq işlərində "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin payı böyükdür. 2010-cu ildə yaradılmış bu müəssisə diyarımızın təbii sərvətlərindən daha səmərəli istifadə etməklə travertin və mərmər emalı üzrə ixtisaslaşıb. Müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərində yerli tikinti materiallarına olan tələbatın ödənilməsində mühüm rol oynayır.

Hər bir quruculuq işi öz bəzəyini müasir mebellərlə tamamlayır. Müasir komfort tələbatlarını ödəyən mebellər həm məişətimizdə, həm də iş yerlərində insanların rahat yaşaması və fəaliyyət göstərməsi üçün çox vacibdir. Bu tələbatın ödənilməsində Naxçıvan şəhərində fəaliyyət göstərən mebel istehsalı müəssisələri mühüm rol oynayır. Onlardan ən böyüyü olan "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti 2010-cu ildə yaradılıb. Hazırda 250-yə yaxın işçinin çalışdığı bu müəssisədə qonaq otağı, yataq, mətbəx və ofis dəstlərinin hazırlanması üzrə böyük təcrübə əldə olunub. 45 çeşid və çox sayda model üzrə istehsal olunan mebellər muxtar respublikamızla yanaşı, ölkəmizin digər yerlərində, habelə Türkiyə və Gürcüstanda da özünə alıcı tapmaqdadır.

"Dizayn Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsullara da Naxçıvandakı quruculuq işlərinin həyata keçirilməsində böyük tələbat vardır. 2011-ci ildə yaradılmış bu müəssisədə hazırda 60 nəfər işlə təmin olunub. İstehsal olunan məhsulların çeşidi isə çoxdur. Burada müxtəlif formada dekorativ məmulatlar, quraşdırma və dizayn üçün hər ölçüdə metal boru və profillər istehsal edilir. Ayrıca bu müəssisə şəhərimizə yaraşıq verən reklam lövhələrinin hazırlanması işini də həyata keçirir.

"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsulların reklama ehtiyacı yoxdur. Doğrudan da, bu müəssisənin istehsal etdiyi məhsullar 10 ildən artıqdır ki, süfrələrimizin bəzəyidir. 230 işçinin daimi işlə təmin olunduğu cəmiyyətin istehsal sahələrində 8 adda, 96 çeşiddə məhsul istehsal olunur. "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində isə 2 adda 78 çeşiddə məhsul istehsal olunur və hal-hazırda burada 44 nəfər işlə təmin olunub. 48 nəfərin daimi işlə təmin olunduğu "Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyətində isə istehsal olunan quş əti və yumurta muxtar respublikanın daxili bazarının tələbatının əksəriyyətini ödəyir.

Plastik məmulatların istehsalı və satışı üzrə ixtisaslaşmış "Cahan-Pen" Məhdud Məsuliyyətli Cəmiyyəti 2004-cü ildə yaradılıb. 90-dan çox işçinin çalışdığı bu müəssisədə plastik qapı-pəncərə hazırlanması üçün ağ və rəngli PVC materiallar, 10 növdə və 2 çeşiddə olmaqla, polipropilen borular hazırlanır. Müəssisənin istehsal etdiyi məhsullara tələbat böyükdür. Yüksək təzyiqə, istiliyə və digər mexaniki təsirlərə qarşı davamlı olan bu məhsullar muxtar respublikamızla yanaşı, ölkəmizin başqa regionlarında da satışa çıxarılır.

"Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti 2004-cü ildə yaradılıb. Bu müəssisə yaradılanadək muxtar respublikada istehlak olunan pivə tamamilə idxal hesabına ödənilirdi. Ötən dövrdə öz istehsal fəaliyyətini genişləndirən müəssisənin istehsal etdiyi məhsullar hesabına daxili bazarın tələbatının böyük bir hissəsi ödənilməyə başlanıb. Hazırda 54 nəfərin çalışdığı bu müəssisədə pivə və limonad olmaqla, 2 çeşiddə məhsul istehsal olunur.

Muxtar respublikamızda fəaliyyət göstərən mühüm istehsal müəssisələrindən biri də "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisə şirniyyat, cipsi, alma sirkəsi və quş əti istehsalı üzrə ixtisaslaşıb. Burada 30 nəfərdən çox adam daimi işlə təmin olunub. Müəssisənin istehsal etdiyi bir sıra məhsullar muxtar respublikamızda daxili tələbatın ödənilməsi baxımından çox vacibdir. Çünki bu müəssisə işə düşməmişdən əvvəl həmin məhsullara olan tələbat tamamilə idxal hesabına ödənilirdi.

Naxçıvan şəhərində fəaliyyət göstərən çox sayda digər istehsal-emal müəssisələrinin adlarını çəkmək olar. Ümumilikdə, onların fəaliyyətini təhlil etdikdə görürük ki, bu müəssisələrin əksəriyyəti muxtar respublikada daxili bazarın tələbatlarının ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Böyük bir hissəsi son 10-15 il ərzində işə salınmış bu müəssisələrin bəziləri keçmişdə mövcud olmuş təcrübə əsasında yenidən qurulub, əksəriyyəti isə tamamən yeni yaradılıb. Ancaq bu müəssisələrin hamısının ümumi bir cəhəti odur ki, onlar yeni dövrün tələbləri – yüksək texnologiyaların tətbiqi ilə müasir standartlar əsasında işləməklə istehlakçılar üçün çox faydalı olan məhsullar istehsaletmə gücünə malikdirlər. Həm də təkcə Naxçıvan Muxtar Respublikası üçün deyil, ölkəmizin və hətta dünya bazarının tələbatları üçün. Naxçıvan artıq bir sənaye şəhəridir.

**Əli CABBAROV**

*9 oktyabr Beynəlxalq Poçt Günüdür*

# Muxtar respublikada müasir poçt sistemi yaradılmışdır

***Bütün dünyada vahid beynəlxalq poçt qaydalarının müəyyən edilməsi 1874-cü ilin 9 oktyabr tarixində Ümumdünya Poçt İttifaqının yaradılması ilə mümkün olmuşdur. Həmin tarix 1969-cu ildə Yaponiyada keçirilmiş Ümumdünya Poçt İttifaqının Konqresində qəbul edilmiş qərarla hər il Ümumdünya Poçt Günü kimi qeyd olunur.***

Azərbaycanda, eləcə də muxtar diyarımızda poçt işinin tarixi daha əvvələ gedir. Lakin ölkəmizdə bu əlamətdar günün qeyd olunması müstəqillik illərinə təsadüf edir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox beynəlxalq təşkilatlarla yanaşı, 1993-cü ildən Ümumdünya Poçt İttifaqının üzvlüyünə qəbul olunmuş və hazırda tamhüquqlu üzv kimi fəaliyyət göstərir. Müstəqil ölkə kimi Ümumdünya Poçt İttifaqının üzvü olduğu qısa zaman ərzində Azərbaycan poçtu çox sürətli inkişaf yolu keçmişdir.

Ölkəmizdə rabitə və informasiya texnologiyalarının inkişafı tarixinə qısaca nəzər salsaq, görərik ki, bu inkişafın təməli ötən əsrin 70-ci illərindən qoyulmuşdur. 1969-cu ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə bu sahədə əsaslı dəyişikliklər baş vermiş, o dövrün tələblərinə uyğun poçt və rabitə sistemi yaradılmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra isə poçt sistemi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ulu öndərin rəhbərliyi ilə 1997-ci ilin mart ayında poçt rabitəsinin "Dirçəliş və inkişaf proqramı" qəbul olunmuş, həmin ilin dekabr ayında isə "1998-2003-cü illər üçün poçt rabitəsinin inkişaf konsepsiyası" təsdiq edilmişdir. Ulu öndərin 2003-cü il 17 fevral tarixli "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" (2003-2012-ci illər) haqqında Sərəncamına əsasən, Azərbaycanda rabitə sistemi, o cümlədən poçt rabitəsi yeni və davamlı inkişaf mərhələsinə qədəm qoymuşdur.

Naxçıvan Muxtar Respublikasının poçt-rabitə sistemi də özünəməxsus inkişaf yolu keçmişdir. Naxçıvanda ilk poçt ekspedisiyası hələ 1828-ci ildə yaradılmış, 1864-cü ildə Tiflis-Naxçıvan teleqraf xətti çəkilmişdir. 1918-ci ildə Naxçıvan şəhərində ilk poçt kontoru açılmış, 1927-ci ildə isə Ordubad, Culfa, Şərur poçt-teleqraf şəbəkələri və Naxçıvan şəhərində Poçt-Teleqraf Agentliyi yaradılmışdır. 1996-cı ildən başlayaraq Naxçıvanda poçt xidmətlərinin keyfiyyəti mərhələ-mərhələ yüksəldilmiş, bu sahənin texniki imkanları genişləndirilmişdir. Telekommunikasiya sisteminin müasir texnologiyalar əsasında təkmilləşdirilməsi və yeni rabitə şəbəkələrinin istifadəyə verilməsi, poçt bölmələrinin sayının artırılması və internetə çıxış imkanının yaradılması ilə Naxçıvan Muxtar Respublikasının informasiya şəbəkəsi xeyli genişləndirilmişdir.

Ötən dövrdə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində poçt müəssisələri bütün növ xidmətlərin təşkili üçün müasir texnologiyalarla təmin edilmiş, xidmətin səviyyəsi yüksəldilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" 2013-cü il 30 iyul tarixli Sərəncamı isə bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirmişdir.

Muxtar respublikada rabitə sahəsində gedən sürətli inkişaf, fiberoptik kabel xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkəsinin yaradılması poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaradır. Hazırda "Naxçıvanpoçt" MMC 1 mərkəz, 7 filial və 157 poçt bölməsi ilə muxtar respublikamıza poçt xidməti göstərir.

Bütün növ xidmət haqlarının yığılması üçün muxtar respublikada, ümumilikdə, 142 poçt məntəqəsi avtomatlaşdırılmış, onlara 145 ədəd POS-terminal qoyulmuşdur.

Cəmiyyət tərəfindən hazırda qaz, elektrik enerjisi, su, rabitə xidməti haqları, bələdiyyə, YAP üzvlük, DSMF sığorta haqlarının və Dövlət Yol Polisi tərəfindən qeyd olunan cərimələrin qəbulu davam etdirilir. Bu xidmət haqlarını vətəndaşlarımız quraşdırılan POS-terminallardan istifadə etməklə də ödəyə bilir. Eyni zamanda elektrik enerjisi, sudan istifadə haqları və internet ödənişini onlayn ödəyə bilərlər. İnternet üzərindən bu xidmətlərin təklif olunması muxtar respublika əhalisinin işini bir qədər asanlaşdırır. Vaxt itkisinin qarşısını alır.

Bu ilin may ayından etibarən FİNCA bankla bağlanmış müqaviləyə əsasən bankın müştərilərindən kredit vəsaitlərinin qəbuluna başlanılmışdır. "Naxçıvanpoçt" MMC-nin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulmasından sonra bu sistemə daxil olmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılması həyata keçirilir. Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının smart sayğaclarla dəyişdirilməsi ilə poçt bölmələrində həmin kartların yüklənməsi işinin təşkili üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında server qoyulmuş, şəbəkəyə qoşulmuşdur. Eyni zamanda Naxçıvan şəhərində 10 poçt bölməsi yeni kompüter və kart oxuyucu ilə təmin edilmişdir.

Bundan əlavə, "Naxçıvanpoçt" MMC-nin şəbəkəsinə yeni qoşulmuş poçt bölmələrində teleqramların qəbulu, çatdırılması, moniqramların qəbulu və ödənişi ilə əlaqədar poçt əməliyyatçıları üçün Colvir sistemi üzrə kurslar təşkil olunmuşdur.

2016-cı ilin ötən dövrü ərzində Culfa rayonunun Saltaq, Babək rayonunun Xəlilli, Məzrə, Kəngərli rayonunun Yurdçu, Şərur rayonunun Oğlanqala və Şahbuz rayonunun Daylaqlı kəndlərində istifadəyə verilmiş yeni poçt bölmələrindəki işçi kompüterlər "Naxçıvanpoçt"un MHM şəbəkəsinə qoşularaq bütün lazımi avadanlıqlarla təmin olunmuşdur.

Texnologiyanın inkişaf tempi elektron imzadan istifadəyə tələbatı da artırmışdır. Elektron imzadan istifadə vaxta qənaət etməklə sənədi imzalayaraq istənilən məsafəyə tam təhlükəsiz göndərməyə imkan verir. Bu tələbatı ödəmək məqsədilə "Naxçıvanpoçt" MMC-nin rayon filiallarının mərkəzi poçt şöbələrində elektron imza kartının verilməsinin təşkil edilməsi üçün müvafiq şəbəkə qurulmuş, "Elektron İmzanın Sertifikat Xidməti Mərkəzi" yaradılmış və lazımi avadanlıqlarla təmin edilmiş, "Elektron imza" kartlarının verilməsi davam etdirilmişdir.

Son illərdə poçt xidmətinin həcminin artması ilə əlaqədar olaraq poçtdaşıma işlərini yaxşılaşdırmaq üçün yeni avtomobillər alınmış, muxtar respublikanın rayonlarına poçtun daşınması dəmir yolu nəqliyyatı vasitəsilə təşkil edilmişdir.

Poçt işçilərinin xidmət mədəniyyətinin yüksəldilməsi məqsədilə vahid geyim formasının tətbiq edilməsi, bütün poçt müəssisələrinin hər növ poçt xidmətinin təşkili üçün müasir texnika və texnologiya ilə təmin edilməsi işin keyfiyyətinə müsbət təsir göstərmişdir.

Bu gün muxtar respublikanın şəhər və kəndlərində quruculuq işləri aparılarkən poçt sahəsinin maddi-texniki bazası da möhkəmləndirilir, yeni rabitə evləri və poçt bölmələri istifadəyə verilir, xidmətin səviyyəsi yüksəldilir. Bundan başqa, muxtar respublika ərazisində poçtdaşıma işlərinin yaxşılaşdırılması, beynəlxalq poçtdaşımalarının həyata keçirilməsi üçün "Express Mail Servis", DHL beynəlxalq ekspress poçt xidmətləri fəaliyyət göstərir. Bu da məktubların, sənədlərin və bağlamaların ən qısa zamanda ünvana etibarlı çatdırılmasını təmin edir. Eyni zamanda göndərişlərin hansı məntəqədə olduğunun internet üzərindən izlənməsinə imkan yaradır.

Yaşadığımız XXI əsrin texnika və texnologiyaların yüksək mərhələsi və sürət əsri olduğu, əhalinin müasir poçt xidmətlərinə tələbatı nəzərə alınaraq Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində poçt xidmətlərinin dünya standartları səviyyəsinə uyğunlaşdırılması məqsədilə müvafiq tədbirlər ardıcıl şəkildə davam etdirilir.

*Poçt cəmiyyəti daim dəyişən elektron dünyanın ayrılmaz hissəsidir. Poçt işçiləri bundan sonra da səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublika sakinlərinə nümunəvi xidmət göstərəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# dünən Naxçıvan şəhəri bu gün





Əli XUDİYEV

## Əllərin əməyindən, ürəklərin sevgisindən yaranan əl işləri sərgisi

***Bir-birindən gözəl, incə naxışlarla, ornamentlərlə bəzədilmiş milli geyimlər, üzərində tarixi abidələrimizin əksi olan xalılar, xurcunlar, heybələr, əlvan rənglərin bəzədiyi tablolar, maketlər, cürbəcür daşlardan, muncuqlardan yığılmış bilərziklər, boyunbağılar, içində iplərdən toxunma gül-çiçək olan güldanlar və daha nələr, nələr...***



Son 10 gündə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayına gedənlər qadın əlinin, qadın təxəyyülünün, qadın zərifliyinin və istedadının sehrinə düşüblər. Çünki ötən ayın 28-dən əzəmətli Heydər Əliyev Sarayının foyesi sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış üçün ayrılmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq, Bilik Fondunun Himayəçilik Şurasının, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkil etdiyi sərgi-satışa böyük maraq göstərilib. Buraya üz tutan muxtar respublika sakinləri və qonaqlar hədiyyəlik əşyalar alıb, sərgidə nümayiş etdirilən digər nümunələrlə maraqlanıblar. Telli Dadaşovanın, İradə Abbasovanın, Sona Əliyevanın, Sonay Hacızadənin, Pakizə Məmmədlinin, Məhbubə Əliyevanın və başqalarının sərgidə nümayiş etdirilən əl işləri incə qadın zövqündən və sənətə həvəsdən xəbər verirdi.

Sərgi başa çatmamışdan bir neçə gün əvvəl Heydər Əliyev Sarayına gedərək burada əl işlərini nümayiş etdirən qadınlarla, sərgiyə gələnlərlə söhbətləşdik. Sərginin bir guşəsində qarşılaşdığımız, ilk dəfə sərgiyə gipsdən hədiyyəlik əşyalar çıxaran Büllurə Quliyeva evdar qadındır. Deyir ki, bu sərgidə gördüklərim və şahidi olduğum hadisələr məni bu işlə daha ciddi məşğul olmağa məcbur etdi. Bundan sonra çalışacağam ki, gələcəkdə təşkil ediləcək belə tədbirlərə daha maraqlı əl işləri ilə çıxım. Bunun üçün çox çalışmaq lazım olsa da, bu sərgi məni həvəsləndirdi. Əminəm ki, gələcəkdə mənə uğur gətirəcək əl işləri hazırlaya biləcəyəm.

Dekorativ-tətbiqi sənət nümunələri üçün ayrılmış guşənin qarşısında da qələbəlikdir. Buraya toplaşanlar Samiyə Əliyevanın, Səfurə Əlisoyun, Aynur Orucovanın, Fəridə Əliyevanın, Məhbubə Qurbanovanın, Fəxriyyə Allahverdiyevanın, Gülşən Şıxəliyevanın, Səmirə Vəlizadənin, Şəlalə Hüseynovanın, Fatma Kazımzadənin, Şamama Əliyevanın və başqalarının əl işlərinə baxır, işlərin yaradıcılıq keyfiyyətləri haqda söhbət edirlər. Həqiqətən də bu işlər haqqında söhbət açmağa dəyər.

Bakı şəhərində yaşayan və bir neçə günlüyə muxtar respublikaya qonaq gələn Aləm Əkbərov da qadınların əl işlərinin alıcıları arasındadır. Sərgidə nümayiş etdirilən xalçalardan birini aldığını görüb ona yaxınlaşırıq və həmsöhbət oluruq. Deyir ki, bu sərgi məni çox heyran etdi və mən üzərində Naxçıvana aid ornamentlər və təsvirlər olan xalçanı aldım. Çox böyük zövqlə işlənən bu xalça evimizin bəzəyi olacaq. Burada sərgilənən tablolar Naxçıvanda rəssamlıq sənətinin nə qədər inkişaf etdiyindən xəbər verir. Düzü, seçim qarşısında qalmışam. Tabloların hamısı bir-birindən maraqlı, rəngarəngdir. Hansı tablonu seçəcəyimə qərar verə bilmirəm. Ancaq bir şey dəqiqdir ki, bu tablolardan biri mənim iş otağımın divarında öz yerini alacaq.

Sərgiyə dekorativ-tətbiqi sənət nümunələri, bədii tikmələr, xalça məmulatları çıxaran Züriyyə Musayeva sağlamlıq imkanları məhdud istedadlı qadınlarımızdan biridir. Sərgidə onun əl işləri çoxluq təşkil edirdi. Ondan bu qədər işin hazırlanmasına necə vaxt ayırdığını soruşanda səmimiyyətlə gülümsəyir. Deyir ki, bütün sahələrdə olduğu kimi, burada da əsas sözü təcrübə deyir. Əvvəllər o, sərgilərə bir və ya maksimum iki əl işi çıxarırdısa, indi bu işlərin sayını 20-yə çatdırıb. Məhsulların satış səviyyəsi də razılıq doğurur, təşkilatçı qurumların nümayəndələri satışın yaxşı təşkil olunması üçün əllərindən gələni edirlər. Belə sərgi-satışlar onun və onun kimi əl işləri hazırlayanların çox karına gəlir, bir növ, maddi baxımdan kömək edir.

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Gülnaz Mahmudova bu sərgiyə rəsm əsəri, vitraj texnikası ilə, rəngli şüşələrlə hazırlanmış tablo ilə qatılıb. Deyir ki, bu işlərin hazırlanmasında müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın böyük köməyi olub. Sərgiyə gələnlərin onun işlərinə böyük maraq göstərməsinə çox sevinir.

Sərgidə nümayiş etdirilən hər bir əl işinə diqqətlə baxanda açıq-aydın görünürdü ki, ilmələrdə, naxışlarda, ornamentlərdə bu torpağın hər qarışının, xalqımızın mədəniyyətinin, incəsənətinin, tarixinin, etnoqrafiyasının izləri var. Dünyanın hər hansı yerində bu sənət nümunələri nümayiş etdirilsə, Naxçıvanı tanıyanlar bu işlərin harada hazırlandığını dəqiq biləcəklər. Muxtar respublikada yaşayan 227 istedadlı qadının 934 rəsm və əl işinin nümayiş etdirildiyi sərgi-satışa əhalinin böyük maraq göstərməsi onu deməyə əsas verir ki, əl əməyinin, göz nurunun, sonsuz səbir və dəqiqliyin məhsulu olan əl işlərinə tamaşa etmək, onların necə ərsəyə gəlməsi ilə maraqlanmaq hər kəsin ürəyincədir. Bir sözlə, onlara tamaşa etməyə, yaxınlarına hədiyyə verməyə dəyərdi. Qeyd edək ki, 10 gün davam edən, dünən başa çatan sərgiyə 2 min 800 nəfərdən çox tamaşaçı gəlib. Sərgidə 74 qadının 4641 manat dəyərində 266 rəsm və əl işi satılıb.

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tələbə və müəllimləri Bəhruz Kəngərli Muzeyində olublar.***

## Tələbələr Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər



Muzeyin baş fond mühafizi Nazəndə Məcidli buradakı eksponatlar haqqında ətraflı məlumat verib.

Bildirilib ki, Bəhruz Kəngərli Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamına əsasən yaradılıb. 2002-ci il iyun ayının 18-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə muzeyin açılışı olub. Muzeyin fondunda, ümumilikdə, minə yaxın eksponat mühafizə olunur. Bunlardan 366-sı ekspozisiyada sərgilənir. Muzeydə görkəmli rəssamın 341 rəsm əsəri var. Əsərlərdən 58-i orijinaldır.

Muzeyin ayrı-ayrı zallarında rəssamın ailəsinə və özünə məxsus şəxsi və məişət əşyaları, rəssamlıq ləvazimatları, əsər və eskizlərinin fotosurətləri, büstü, heykəli və digər dəyərli eksponatlar sərgilənir.

Məlumat verilib ki, indiki muzey binası XX əsrin əvvəllərində pedaqoji texnikum kimi fəaliyyət göstərib və ulu öndər Heydər Əliyev 1936-1939-cu illərdə burada təhsil alıb. Bu səbəbdən burada dahi şəxsiyyətin həyatının müxtəlif anlarını, təhsil illərini əks etdirən rəsm və fotoların, eləcə də müxtəlif sənədlərin qorunub saxlanıldığı otaq yaradılıb.

Tələbələr muzeydən yüksək təəssüratlarla ayrılıblar.

**Nərmin CABBAROVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Vətəndaşlara məxsus hansı daşınmaz əmlak icbari qaydada sığorta olunur?***

***Cavab:*** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşlara məxsus daşınmaz əmlak (yaşayış evi və mənzillər) icbari qaydada sığorta olunur. Vətəndaşlara məxsus daşınmaz əmlak – anbar, qaraj, tövlə, həyət hasarı və sair kimi təsərrüfat tikililəri icbari qaydada sığorta olunmur. Təsərrüfat tikililəri vətəndaşların arzusuna uyğun olaraq könüllü qaydada sığorta oluna bilər.

Hər hansı hadisə nəticəsində vətəndaşların daşınmaz əmlakı zərər çəkdikdə icbari sığorta üzrə ancaq yaşayış evi və mənzillərə dəymiş zərər məbləği ödənilir. Təsərrüfat tikililəri isə könüllü qaydada sığortalandığı halda sığorta zərər məbləği ödənilir.

***Sual: Vətəndaşlara məxsus daşınmaz əmlakın (yaşayış evi və mənzillərin) icbari sığortasında şərtsiz azadolma məbləğinin mahiyyəti nədir?***

***Cavab:*** Azadolma məbləği sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan, sığortalının üzərində qalan hissəsidir.

Azərbaycan Respublikasının "İcbari sığortalar haqqında" Qanununa əsasən vətəndaşlara məxsus daşınmaz əmlakın (yaşayış evi və mənzillərin) icbari sığortası zamanı Naxçıvan şəhəri üzrə 200 manat, muxtar respublikanın digər rayonları üzrə 150 manat şərtsiz azadolma məbləği müəyyənləşdirilmişdir.

Sığorta hadisəsi nəticəsində Naxçıvan Muxtar Respublikasının rayonlarında yaşayış evi və mənzillərə dəymiş zərər məbləği 150 manatadək, yəni azadolma məbləği həddində olduqda sığorta zərər məbləği ödənilmir. Dəymiş zərər 150 manatdan artıq olduqda isə bundan azadolma məbləği çıxılaraq qalan məbləğ vətəndaşa ödənilir.

Misal üçün, daşınmaz əmlakı (yaşayış evi və mənzilləri) icbari qaydada sığorta olunmuş vətəndaşın sığorta hadisəsi nəticəsində dəymiş zərər məbləği 149 manat olarsa, qanuna uyğun olaraq ona həmin zərər məbləği ödənilmir. Əgər dəyən zərər məbləği 250 manat olarsa, bu zaman 150 manat azadolma məbləği çıxılaraq qalan 100 manat zərərçəkmiş vətəndaşa ödəniləcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin mətbuat xidməti***


**İtmişdir**

Əsədov Akif İnşallah oğluna məxsus Naxçıvan şəhəri, Atatürk küçəsi 8-də yerləşən mağazanın 1998-ci ildə verilmiş 1/202 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 748